# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 550** **Bakı şəhəri, 29 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 257 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391 (Cild I) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə üzrə:

1.1. 2.5-ci və 2.6-cı bəndlərə "proqramının" sözündən sonra "istiqamətlər üzrə" sözləri əlavə edilsin;

1.2. 2.22-ci bənddə "investisiya proqramı dəqiqləşdirilərək" sözləri "büdcəsinə uyğunlaşdırmaq məqsədilə dövlət investisiya proqramının istiqamətlər üzrə dəqiqləşdirilmiş layihəsi" sözləri ilə əvəz edilsin.

**2.** 4.2-1-ci bənddə "sonunadək Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir" sözləri "10-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 30 dekabr (№ 290).- S.12.